İDMAN

# Çövkən daha tarix deyil

## Bu gün isə Prezident Kuboku turniri start götürür

**Atüstü milli oyunlarımızın qorunub saxlanılması, tarixi atçılıq ənənələrimizin bərpası, ölkəmizdə atçılıq turizminin təbliği, həmçinin gənc nəsildə bu idman növlərinə maraq oyadılması məqsədi ilə artıq 10-cu ildir ki, Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə çövkən üzrə Prezident Kuboku yarışı keçirilir.**




Dekabrın 14-də “Sərhədçi” İdman Mərkəzində turnirin püşkatma mərasimi və mətbuat konfransı təşkil edilidi.

Tədbirdə çıxış edən ARAF-ın baş katibi Bəhruz Nəbiyev milli atüstü oyunlarımızla bağlı məlumat verdi. O qeyd etdi ki, çövkən oyununa maraq getdikcə artır:

– 2014-cü ildən başlayaraq Prezident Kuboku turniri keçirilir. Builki yarış 10-cu – yubiley turniridir. Ötən 9 yarışda 6 dəfə “Sərhədçi”, hərəyə 1 dəfə “Omar”, “Buta Golden” və “Polad” komandaları qalib olublar. Təqdirəlayiq haldır ki, Azərbaycanda ta qədimdən mövcud olmuş çövkən nəinki öz aktuallığını itirmədən zəmanəmizə qədər gəlib çatıb, həm də gündən-günə daha da populyarlaşır. Həqiqətən maraqlı olan bu yarışların bütün dünyada özünə tezliklə daha çox pərəstişkarlar qazanacağına inanırıq.

Bəhruz Nəbiyev bildirdi ki, federasiya bu ilin noyabrında Binə Atçılıq Mərkəzində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Milli Atçılıq Festivalı – dünya çempionatını keçirib. O, ölkəmizdə atçılığın inkişafı, dünya şöhrətli idmançıların yetişdirilməsi, gənclərimizdə bu idman növünə maraq oyatmaq, həmçinin “Qarabağ” və “Dilbaz” milli at cinslərinin qorunması və təbliğatı baxımından tədbirin əhəmiyyətini qeyd etdi. Vurğuladı ki, bu, bir başlanğıcdır və gələcəkdə belə nüfuzlu yarışların təşkili davam edəcək. Eyni zamanda, növbəti beynəlxalq yarışlarda daha çox əcnəbi komandanın qatılması ilə bağlı işlər görüləcək.

Mərasimdə o da bildirildi ki, çövkən oyununun qaydaları nəzərdən keçirilib və bir sıra dəyişikliklər edilib. Meydanın ölçülərinə uyğun komandada oyunçuların sayı 5-dən 4-ə endirilib. Bu da qapalı – ölçüsü kiçik olan meydanlarda oyunların daha maraqlı keçirilməsinə yönəlib. Bundan başqa, ilk dəfə “Şirvan”, “Zəfər” və “Embawood” komandaları da ənənəvi yarışda iştirak edəcəklər.

Onu da qeyd edək ki, Prezident Kubokunda yalnız milli cins atlar yarışacaqlar. Püşkatmanın nəticəsinə əsasən, 8 komanda hərəsində dörd olmaqla iki qrupa bölünüb. A qrupunda “Sərhədçi-Qarabağ”, “Polad”, “Köhlən” və “Şirvan” klubları, B qrupunda isə “Sərhədçi-Dilbaz”, “Omar”, “Zəfər” və “Embawood” kollektivləri yer alıblar.



Bu gün Binə Atçılıq Mərkəzinin qapalı manejində turnirə start veriləcək. Dekabrın 15, 17 və 19-da qrup oyunları, dekabrın 21-i yarımfinal və dekabrın 24-ündə isə turnirin finalı baş tutacaq. Qrup oyunlarının nəticələrinə əsasən, hər iki qrupu 1 və 2-ci yerlərdə bitirən komandalar yarımfinala yüksələcək. Oyun günləri yarışlar saat 10:00-da start götürəcək.

***Leyla QURBANOVA***
***XQ***